

**Nəqliyyat və logistika fakültəsinin beynəlxalq əlaqələr və tətqiqatlar üzrə dekan müavini**
**Axundov Qəzənfər Nəsrulla oğlu**

E-poçt: qezenfer.axundov@aztu.edu.az

Qəzənfər Nəsrulla oğlu Axundov 1990-cı ildə Naxçıvan MR-ın Şərur rayonu Çəmənli kəndində anadan olub. 1997-2008-ci illərdə Çəmənli kənd orta məktəbində təhsil alıb.

2008-ci ildə Azərbaycan Texniki Universitetinin Nəqliyyat fakültəsinin "Nəqliyyatda daşımaların və idarəetmənin təşkili" ixtisasına qəbul olunub və 2012-ci ildə məzun olub.

2012-2013-cü ildə Naxçıvan MR-ın N saylı Hərbi hissəsində hərbi xidmətdə olub.

2013-2015-ci illərdə Azərbaycan Texniki Universitetində magistratura səviyyəsində Nəqliyyat fakültəsinin "Dəmiryolu nəqliyyatı və təsərrüfatı mühəndisliyi" ixtisasını bitirib.

Əmək fəaliyyətinə 2013-cü ildə "Azərbaycan Dəmir Yolları" QSC-nin Biləcəri stansiyasında Qatar qəbuledicisi kimi başlayıb. Daha sonra həmin stansiyada Post nöbətçisi, Sərbəst Marşrut üzrə stansiya növbətçi və Stansiya dispeçeri vəzifələrində 2015-ci ilə kimi çalışıb.

2015-2016-ci illərdə Azərbaycan Texniki Universitetinin "Dəmiryol nəqliyyatının istismarı" kafedrasında böyük laborant vəzifəsində çalışıb.

2016-ci ilin oktyabrında 2018-ci ilin fevralına kimi Türkiyə Bursları və Təhsil nazirliyinin birgə proqramı əsasında Türkiyə Respublikasının Bursa Uludağ Universitetinin Otomotiv mühəndisliyi fakültəsində İxtisas artırma və doktorantura pilləsi üzrə tələbə mübadiləsi proqramı çərçivəsində təhsil alıb.

2018-ci ilin fevralından Azərbaycan Texniki Universitetinin "Dəmiryol nəqliyyatının istismarı" kafedrasında assistent və baş müəllim vəzifələrində çalışıb. 2021-ci ilin fevral ayından isə "Nəqliyyat texnikası və idarəetmə texnologiyaları" kafedrasında 0,5 ştat baş müəllim vəzifəsində çalışıram.

2019-cü ilin iyulundan Azərbaycan Texniki Universitetində 3327.01 – "Nəqliyyat sistemləri texnologiyası" ixtisası üzrə dissertanturaya qəbul olunub.

2020-ci ildə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı tərəfindən “İlin Peşəkar Gənci” müsabiqəsinin qalibi olub və Fəxri Fərmanla təltif edilib.

2020-ci ildə ERASMUS+ Nəqliyyat Xidmətləri üçün Böhran və Risklər Mühəndisliyi (Project Crisis and Risks Engineering for Transport Services) Layihəsi üzrə Fransanın Politexnik Universitetində (CRENG - Universite Polytechnique Haunts-de France) təlimdə olub.

2022-2023-cü illərdə UNİSER GROUP MMC-də “Beynəlxalq yük avtomobil sürücülərinin” sertifikasiyası üzrə Təlimçi müəllim vəzifəsində çalışıb.

2024-cü ildən Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Təlim Tədris Mərkəzində Təlimçi müəllim çalışıram.

2021-ci ildən Nəqliyyat və logistika fakültəsində tədris işlər üzrə dekan müavini vəzifəsində və 2025-ci ildən isə həmin fakültənin beynəlxalq əlaqələr və tətqiqatlar üzrə dekan müavini vəzifəsində  çalışıram.

40 elmi məqalənin, 5 fənn proqramının həm müəllifidir.